**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**
**BAKI REGİONAL BÖLMƏSİ**

Az 1029, Bakı şəhəri, Nizami rayonu,
Heydər Əliyev prospekti, 185B

Tel.: (+994 12) 565 12 72(daxili: 302)
e-poçt: baku.office@afsa.gov.az

"30" noyabr 2023 il

№ 3-44-1/2-1-M-1470/23.

**Vətəndaş Asiman Məhərrəmova**
Elektron ünvan: azegarabag@yahoo.com

Sizin "Poladis" MMC-nin mətbəxində sanitariya norma və qaydalarının tələblərinin pozulması və məhsullardan pis qoxu gəlməsi ilə bağlı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə daxil olmuş müraciətinizə Agentliyin Bakı regional bölməsində baxılmışdır.

Müraciətinizin araşdırılması məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən alınmış Çıxarışa əsasən yuxarıda qeyd olunan ünvanda fəaliyyət göstərən qida obyektində plandankənar yoxlama aparılmışdır.

Yoxlama zamanı müəssisədə sanitariya normalarının və qaydalaının, gigiyena normativlərinin və standartların və digər normativ hüquqi aktların tələblərinin pozulmasına dair bir sıra faktlar aşkar edilmişdir. Aşkar edilmiş pozuntularla bağlı müəssisə rəhbərliyi barəsində inzibati xəta haqqında protokol tərtib edilərək inzibati məsuliyyətə cəlb edilmişdir.

Eyni zamanda qeyd olunan məsələ ilə əlaqədar olaraq müəssisə rəhbərliyinə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə riayət edilməsi barədə icrası məcburi göstərişlər verilmiş və bu sahədə qanunvericiliyin tələbləri izah edilmişdir.

**Rəis** **Zaur Kərimov**